# "Qiymət" poeması haqqında düşüncələr

*(Əvvəli ötən saylarımızda)*

Bəzən biz ayrı-ayrı insanların cəmiyyətdə gedən proseslərdə rolunu, yerini görmək üçün onun gördüyü işlərin nə ilə nəticələndiyini ön plana çəkirik. həttaunuduruq ki, görülən işlər bir fayda verə bilməsə belə, bu yolda fədakarlıqla çalışan, ömrünü, zəkasını, ziyasını vermiş olan şəxslərin əməyini itirə bilmərik. Onların fəaliyyəti zaman keçdikcə təcrübəyə çevrilir, inamsızlıqları dağıtmağa, ümidləri dirçəltməyə təkan verir. Bununla da həyatda öz izini qoymuş olur. Hətta bu yolda canını qurban verənlər var. və biz onları faciə qəhrəmanları adlandırırıq. Xoşbəxtlikdən "Qiymət" poemasının ədəbi qəhrəmanı faciə qəhrəmanı deyil. Həyat onun üçün nə qədər facianə sürprizlər hazırlasa da, o, bunların hamısının öhdəsindən gəlməyi bacarmışdır.

* * *

Ayrı-ayrı fərdlərin uğuru demək olar ki, cəmiyyətdə əksər adamları sevindirir, uğurlara xoş münasibət, sevincə şərik olmaq hissləri ilə cavab verənlər az olmur. Cəmiyyət irəli çıxan hər kəsdə öz işığını görür. Gözləyir ki, bu işıq ayrı-ayrı tərəflərdəki qaranlıqları dağıdacaq, insanlara yol açacaq, ümidsizliklər aradan qalxacaq. Əgər cəmiyyətin içərisindəki mənəvi durum müəyyən gərginlik altındadırsa, onda cəmiyyət uğur timsalı olan adamlardan həmişə kömək gözləyir. Təəssüf ki, mühitin içərisində elə insanlar da tapılır ki, uğur timsalı olan adamları özünün rəqibi kimi görür. Belələri idarə edə bilmədikləri kollektivin mənəviyyatında uğur timsalı olan adamların özünü günahkar bilir. Çox istəyir ki, gözünün qabağında işıqlı obraza çevrilmiş belə şəxslər daha az görünsün.

Şəddad Cəfərovun da Moskvadan alim kimi qayıtması, o dövrün təbirincə desək, müsbət xarakteristika ilə müvafiq orqanın sərəncamına göndərilməsi çoxlarının kürkünə od salmışdı. Az qala sex rəisindən yuxarılara qədər hər kəs vəzifə mərtəbəsindən yuvarlanacağını düşünürdü. Guya ki, kifayət qədər enerjili, təcrübəli və eyni zamanda poliqrafiya sahəsində elmi iş müdafiə etmiş Ş.Cəfərov olmasaydı işinə yarıtmaz yanaşanların da oturduqları vəzifə stolu laxlamayacaqdı.

İş burasındadır ki, vəzifə düşgünləri baxmayaraq ki, öz işlərinin öhdəsindən gələ bilmirlər, ancaq onlar sadə adamları əsassız vədlərlə səfərbər etməyi bacarırlar. Belələri müvafiq sahəyə qayıdandan sonra Ş.Cəfərova qarşı bir növ səngər qurdular. Onlar bu yöndə sadə adamları da qeyd etdiyimiz kimi, vədləri ilə öz niyyətlərinə tabe etdirməyə çalışırdılar. Görkəmli filosof Qustaf Le Bon (07.05.1841-07.11.1931) xalqların taleyində ideyaların təsirilə bağlı əsəri həm də kütlə psixologiyasını öyrənmək üçün bir açardır. Onun adı çəkilən məşhur əsərində ingilis filosofuna istinadən verilmiş mətndə oxuyuruq: «İngilis filosofu Mən yazır: «Biz daim icmalar palatasındakı müzakirələr haqqında oxumalı oluruq. Bu müzakirələr demək olar ki, heç bir xüsusi əhəmiyyəti olmayan ümumi yerlərin mübadiləsindən və kəskin şəxsiyyətlərdən ibarətdir. Lakin bu növ ümumi ifadələr xalis demokratiyanın təxəyyülünə heyrətamiz təsir göstərir. Kütləyə, onun təxəyyülünə təsir göstərən ifadələrlə təqdim olunan ümumi xarakterli dəlilləri qəbul etdirmək həmişə asandır. Hərçənd bu dəlillər heç bir ilkin yoxlamadan keçməmişdir və heç onların yoxlanılması da mümkün deyildir» (Qustaf Le Bon «Kütlə psixologiyası» Bakı-2006. səh.308). Demək, kütlənin təxəyyülünə təsir göstərən ümumi xarakterli dəlilləri şər qüvvələr, bir sözlə, kütləni idarə etmək istəyənlər hardan desən tapa bilir.

Beləcə, Ş.Cəfərov haqqında da müxtəlif cür şayiələr yayır. Onun güya Azərbaycan mühitindən ayrıldığına, burada işin yerli şəraitə aid olan tərəflərini bilmədiyinə dair nə gəldi deyirdilər. Bir sözlə, Ş.Cəfərovu gözdən salmaq, onun necə olur-olsun, respublika rəhbərliyinin diqqətini cəlb etməməsi üçün kölgədə saxlanılmasına, adının qara siyahıda göstərilməsinə cəhd göstərilir, bu yolda min bir oyundan çıxırdılar.

Doğrudur, bu təəssüratları biz «Qiymət» poemasının motivləri əsasında yazırıq. Amma həyat həqiqətləri də çox uzaq zaman olmadığı üçün onu tanıyanların yaddaşından silinməyib.

Şair Elşad Səfərli əsərinin bu yerində məxsusi olaraq Ş.Cəfərovun respublikanın poliqrafiya aləminə qayıdışı ilə bağlı məqamlara geniş yer verir. Psixologi mühiti, bir sözlə, kütləni təşkil edən adamların iç üzünü sözün gücündən istifadə edərək qədərincə aça bilir:

Şəddadın uğuruna sevinmədi paxıllar,
Neçəsinin köksünə elə bil zərbə dəydi.
Bir zaman onun ilə bir cərgədə olanlar,
İndi isə ona qarşı tamam zidd cərgədə idi.

O, bütün bu halların səbəbini bilirdi,
Gör-götür dünyasıydı, görürdü, götürürdü.
Şəddadın ayağına şöhrət özü gəlirdi.
Buna sevinməyənin paxıllığı tuturdu.

Onun alim adıyla Bakıya qayıtması,
Neçə vəzifəlinin yuxusunu pozmuşdu.
Neçə kürsü qulunun ürəyində qəm pası,
Neçəsini paxıllıq əldən salıb, üzmüşdü.

İş burasında idi ki, Şəddad da asanlıqla məğlub olan deyildi. Onsuz da həyat onu hələ uşaqlığından bəri çox sınaqlara çəkmişdi. Bütün gəncliyi boyu həyatın qaynar qazanında bişmiş, çətinliklərə sinə gərmiş, ən ağır məhrumiyyətlərə dözmüşdü. Ən başlıcası, həyat ona çox tutarlı bir silah bəxş etmişdi. Bu da onun təmkini idi. Hər hansı bir məqamda onu asanlıqla əsəbiləşdirib özündən çıxarmaq mümkün deyildi. Əslində, o, qara kompaniyanın başında kimlərin durduğunu da yaxşı bilirdi. Ancaq qətiyyən onlara hər şeyi başa düşdüyünü, bildiyini demirdi. Hətta bəzi məqamları eşitməzliyə vurur, görməzliyə ötürür, bir sözlə, çox şeyin üstündən keçib gedirdi.

Psixoloji gərginliyi, bir insanın əsəbilərini tarıma çəkə biləcək mühiti müəllif «Qiymət» poemasında insanlığa yabançı bir mənzərə kimi yaradır.

Dözülməz bir mühitdə dözməzdi bəlkə, daş da,
Axır onun qəlbi də buna tab gətirmədi.
Ərizəsini yazıb qalmadı nəşriyyatda.
Artıq söz-söhbətləri ürəyi götürmədi.

Beləcə öz işini gördü namərd hiyləsi.
İşindən kənar oldu bir alim-mütəxəssis.
O vaxtkı üzdəniraq naşirlərdən neçəsi.
Şəddadın yaddaşında qaldı namərddən də pis.

Həyatda heç nə izsiz qalmır. Bütün yaxşılıqlar da, pisliklər də yaddaşın saxlancına ötürülür. Yaddaş özü insanın psixoloji-mənəvi xəzinəsi olaraq olub-keçənləri təsnifata ayırır, bölgülərə çevirir, xərclənən, xərclənməyən vəsait kimi ona dəyər verir. Ş.Cəfərovun bir üstünlüyü vardır ki, özünə qarşı olan pislikləri sanki yaddaş xəzinəsinin ağzı qıfıllı bir hücrəsində saxlayırdı. Onun həyat kredosu sanki yaxşı əməllərin motivləri əsasında formalaşmışdı. Ona görə də bədliklərin heç birisini təzədən mənəviyyatına gətirib özünü əzablara düçar eləmirdi.

* * *

«Ulyanovskaya pravda» nəşriyyatında... Poemanın növbəti fəsli elə beləcə də adlanır. Ş.Cəfərovun adını, ünvanını qaralayanların heç nəyə nail ola bilmədiyini demək də düz deyil. Onlar, əslində, demək olar ki, istəklərinə yetdilər. Amma əlbəttə, axıracan yox. Respublika rəhbərliyi öz müşahidələri ilə bu bacarıqlı mütəxəssisin nəyə qadir olduğunu artıq bilirdi:

Onun bacarığından Xəbərdardı Rusiya,
Savaşı, səriştəsi aydın idi çoxuna.
Şəddadı işsiz qoya bilmədi böhtan, riya.
Ulyanovskidən bu vaxt dəvətlər gəldi ona.

O çox götür-qoy etdi, çox daşındı, düşündü.
Bakıdan uzaqlaşmaq ona çox ağır gəldi.
Bir halda ki, qədrini vətəndə bilən yoxdu,
Qəlbində qəti getmək fikrinə axır gəldi.

Ş.Cəfərovun Rusiyada elmi-tədqiqat və naşirlik sahəsində püxtələşmə yolu keçməsi rusiyalı bir çox həmkarlarının yadından çıxmamışdı. Hələ Rusiya universitetlərində oxuduğu mühazirələrdən keçmiş naşirlər vardır ki. Onlar Rusiyanın müxtəlif yerlərində onun təkliflərini, səmərəli rəylərini yayırdılar. Güman ki, Ş.Cəfərovun «Ulyanovskaya pravda» nəşriyyatına dəvət olunmasında bu amillərin də rolu olmuşdur. Respublika rəhbərliyindən «Ulyanovskaya pravda» nəşriyyatına rəhbər mütəxəssis istəniləndə onun rus dilini yüksək səviyyədə bilməsi, işinin çox dəyərli mütəxəssisi olması kimi üstünlükləri önə çəkildi və mübahisəsiz olaraq ona «Ulyanovskaya pravda» nəşriyyatına rəhbər getməsi təklifi verildi.

Əlbəttə, Ş.Cəfərov bunun özünə də bir etimad kimi baxırdı. Və o, bu etimadı doğrultmaq üçün hər cür fədakarlığa hazır idi. Telefon əlaqəsi saxlayır, Moskvadan tanıdığı adamlar onun Ulyanovski şəhərinə gəlməsinə çox sevinirlər. Bütün bunlar «Qiymət» poemasında bir naşirin həyat yolu kimi çözülür. Bütöv xarakter, yaxşı işçi, dəyərli mütəxəssis uzaq ölkələrdə də öz vətənini, milli mənsubiyyətini təmsil edir. onun Ulyanovski şəhərində hörmətlə qarşılanması uğurlu bir gələcəkdən xəbər verirdi. Beləliklə, biz «Qiymət» poemasının qəhrəmanını o vaxt deyildiyi kimi, proletariyatın dahi rəhbərinin vətənində görürük. Onun həyatının bu mərhələsi, xüsusilə, maraqlıdır və diqqəti çəkəndir. Onu yeni məkanda və rəhbər vəzifədə necə görəcəyik? «Qiymət» öz sözünü deyir:

Şəddad xoş qarşılandı uzaq Ulyanovskidə,
Dəvət edilən işlə tanış olmağa getdi.
Böyük bir nəşriyyata şəhər rəhbərliyi də,
Baş direktor olmağı ona həvalə etdi.

Əvvəlcə bu hörmətdə doluxdu, kövrəldi də,
Burda yetdi haqqa vətəndə yetməmişdi.
Haqqı hələ bir yana, neçə nadan vətəndə
Bir kiçik mənsəbdən də onu məhrum etmişdi.

Ev-eşiklə, otaqla, dərhal təmin olundu,
Onu layiq bildilər hər cür qayğı, hörmətə.
Bu hörmətin önündə o, xeyli məşğul oldu,
Əhd etdi doğru çıxsın bu haqqa, bu qiymətə.

Bütün bu hörmət-izzətlər, yüksək səviyyədə qarşılanmalar, qonaqpərvərliklər, istiqanlı münasibətlər onun üçün məsuliyyət idi. O, bunların hamısını hələ ki, avans hesab edirdi. Düşünürdü ki, gərək öz işi ilə bütün bu yaxşılıqların hamısının əvəzini qaytarsın. Doğrudur, bütün bunlar məsuliyyət idi. Bəlkə də, həyatın elə çətinlikləri qarşıya çıxa bilərdi ki, o, bu hörmətlərin əvəzini qaytara bilməzdi. Ancaq Ş.Cəfərov bütün bu məsuliyyətlərdən qorxmur, çəkinmir. Onsuz da mübarizələrdə bişmiş bir xarakter kimi yolunun hamar olmayacağını qabaqcadan bilirdi. Doğrudur, prinsipcə ona manne olanlar olmasa da, digər çətinliklər, istehsalat mürəkkəblikləri onu gözləyirdi. Üstəlik nəşriyyata uzun illər səriştəsiz adamların rəhbərlik etməsi nəticəsində böyük müəssisə də iflasa uğramışdı. Dəzgahlar isə demək olar ki, işə yaramırdı. O, ilk öncə bütün bunların hamısını diqqətlə öyrənir, mükəmməl hesabat hazırlayır, çıxış yollarını göstərir. Öz işini yaxşı bilməsi, rus dilinin incəliklərindən yerindəcə yararlanması ona imkan verir ki, yerli partiya rəhbərliyi ilə də tez dil tapsın, onlarla ünsiyyət qura bilsin. Tələbkarlıq ünsiyyətlə qarşılaşanda dostluq münasibəti yaranır, problemlərin də həlli asanlaşır. Bu barədə o, sonralar öz gündəliklərində yazacaqdı həyatının ötən keçən təcrübəsi kimi:

Bu haqqın məsuliyyət yükündən də qorxmadı
Çalışaraq bu haqqa layiq ola bildi o.
Böyük öhdəliklərin önündə duruxmadı,
Bütün öhdəliklərin öhdəsindən gəldi o.

O sevmirdi boş-bekar, ətalətli həyatı,
İşlədikcə qanında işləmək şövqü artdı.
Vilayətdə geridə qalmış bir nəşriyyatı
Tezliklə də öncüllər sırasına çıxartdı.

Əsərdən tanıdığımız Şəddadla həyatda gördüyümüz, tanıdığımız, müasirimiz olan, fərqli cəhətləri azdır. Ancaq üst-üstə düşən bənzərliklər daha çoxdur. Çünki həyatdan tanıdığımız təmkinli, müdrik, poliqrafiya sahəsində ustadımız olan görkəmli naşir Ş.Cəfərov hətta yaşının indiki çağında da durğunluğu, ətalətli həyatı qəbul eləmir, hər hansı bir işi görəndə onu ilhamla, coşğunluqla icra etməyi xoşlayır. öz tələbələrinə, yetirmələrinə də bu xüsusiyyətli təlqin edir. Onun yetirmələri sırasında qardaşı və eləcə də özünün oğlanları da var. Həm iş, həm də həyat təcrübəsini onlardan əsirgəmir. "Qiymət" poemasının müəllifi Ş.Cəfərovun bu cür xarakterik cizgilərini öz istedadının sayəsində reallıqla, ustalıqla əlaqələndirə bilmişdir. Biz vilayətdə böyük sovet imperiyasının Lenin şəhərində Ş.Cəfərovu hörmət və izzət sahibi kimi görürük. Böyük sovet məkanından çoxlu kadrlar tapıb həmin şəhərə göndərmək olardı. Axı həm də həmin şəhər ideologiya mərkəzi kimi rəmzi mahiyyət daşıyırdı.

Görünür, Ş.Cəfərovu tanıyanlar, onun təbiətini bilənlər nəşriyyatı durğunluqdan çıxaracağına əmin olanlar Şəddadın adını təsadüfi seçməmişdilər. Onun həyatının "Ulyanovskaya pravda" mərhələsi, sovet təbiətinə uyğun ifadə etsək, Leninin adına layiq idi.

Bəli, Ş.Cəfərova zamanın böyük etimadı göstərilmişdi.

*(Davamı var)*